# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 397** **Bakı şəhəri, 17 sentyabr 2018-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli 143 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektron sağlamlıq kartı" sisteminin tətbiqi Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

"Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli 143 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 571; 2008, № 7, maddə 672; 2016, № 2 (II kitab), maddə 390) ilə təsdiq edilmiş "Elektron sağlamlıq kartı" sisteminin tətbiqi Qaydaları"na aşağıdakı məzmunda 5.1-3-cü bənd əlavə edilsin:

"5.1-3. Lisenziyanın və icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, lisenziyanın və icazənin yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün avtomobil sürücüsünün sonuncu tibbi müayinədən keçməsi tarixi və sağlamlıq vəziyyəti barədə məlumatlar "Elektron hökumət" portalı vasitəsilə "Lisenziyalar və icazələr" portalına ötürülür.".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***